# Azərbaycan naminə "Yaşıl Baxış"

**Azərbaycan daha bir mötəbər beynəlxalq tədbirə ev sahibliyi etmək haqqı qazanıb. Ölkəmiz artıq beynəlxalq tədbirlərin, nüfuzlu sammitlərin, habelə ən həlledici siyasi və hərbi görüşlərin keçirildiyi danışıqlar platforması kimi də tanınır. Azərbaycan Prezidenti İlham Əliyev aprelin 24-də ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda keçirilən beynəlxalq forumdakı çıxışında mühüm məsələlərə toxunaraq ölkəmizin son dövrlər əldə etdiyi uğurlardan, perspektivlərdən, o cümlədən paytaxt Bakıda təşkil olunacaq COP29 konfransına hazırlıq prosesindən danışıb.**



Dövlət başçımız xüsusi vurğulayıb ki, COP29 beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana olan böyük ehtiramın və dəstəyin göstəricisidir. Bu tədbirə ev sahibliyi etmək həm geniş imkanlar yaradan fürsət, həm də böyük məsuliyyətdir.

**(davamı 7-ci səhifədə)**

səh. 8

# Azərbaycan naminə "Yaşıl Baxış"

(əvvəli 1-ci səhifədə)

COP29 tədbirinə ev sahibliyi etməyin məsuliyyətini öz üzərinə götürməklə Azərbaycan problemə həssas yanaşmasını nümayiş etdirib. Hazırda ölkəmizdə beynəlxalq iqlim konfransına ciddi hazırlıq görülür. Ölkəmizin liderlik keyfiyyətləri nümayiş etdirməsi və noyabrda ev sahibliyi edəcəyi COP29 konfransına məsuliyyətlə hazırlaşması, tədbirlə bağlı ciddi gündəlik müəyyənləşdirməsi, kiçik ada dövlətlərinin mövcudluq probleminə və digər aktual məsələlərə diqqət çəkməsi beynəlxalq səviyyədə müsbət nümunə kimi qəbul olunur. Bu yaxınlarda Almaniyanın Bonn şəhərində keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Yardımçı Qurumunun 60-cı sessiyasında iştirak edən bir sıra QHT-lər Azərbaycanın COP29 ölkəsi kimi bütün maraqlı tərəflərlə dialoq və əməkdaşlığı təşviq edən fəaliyyətini təqdir edən bəyanat yayıblar. Bəyanatda 2024-cü ilin noyabrında Azərbaycanın paytaxtı Bakıda keçiriləcək COP29-un vacibliyi vurğulanır. Qeyd edilir ki, bu tədbirdən gözləntilər böyükdür.





Bu gün dünyada iqlim dəyişmələri, təbiətə vurulan zərərin qarşısının alınması qlobal çağırışdır. Getdikcə daha təhlükəli hal alan bu təhdidlər təxirəsalınmaz tədbirlər görülməsini, ölkələrin və beynəlxalq təşkilatların koordinasiyalı fəaliyyət göstərməsini zərurətə çevirib. Azərbaycan da bu çağırışa qoşulan ölkələr sırasındadır. Ətraf mühitin mühafizəsi, ekologiyanın qorunması xüsusi diqqət mərkəzindədir. Ötən dövr ərzində bu istiqamətdə ölkə rəhbəri tərəfindən dövlət proqramları təsdiq edilib, müvafiq fərman və sərəncamlar imzalanıb. İqlim dəyişmələri artıq bütün dövlətlər qarşısında vacib reallıq kimi dayanır. Mineral yanacaq növlərindən istifadənin geniş yayılması və bunun nəticəsində atmosferə atılan istixana qazlarının həcminin artması dünyada temperaturun yüksəlməsinə səbəb olub. Temperaturun qlobal səviyyədə artması səbəbindən hava şəraiti dəyişib, ekstremal təbiət hadisələri və təbii fəlakətlər daha tez-tez baş verir. Meşə yanğınları, sel, tufan, torpaq sürüşmələri, quraqlıq kimi ağır hadisələr çoxalıb.

Ölkəmizin COP29-a ev sahibliyini 2024-cü ilin ən mühüm hadisəsi və ölkənin "yaşıl iqtisadiyyat"a keçid strategiyasının məntiqi davamı kimi qiymətləndirmək olar. Azərbaycan Prezidentinin Sərəncamı ilə 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi bu missiyaya verilən dəyərin təsdiqidir. Bu təşəbbüs Azərbaycanın müsbət ekoloji dəyişikliklər yaratmağa çalışan ölkələr üçün model olmaq istəyi, eyni zamanda daha yaşıl və sağlam gələcəyin qurulması istiqamətində öhdəliyini, strateji məqsədlərini və fəal tədbirlərini əks etdirən addımdır. Görülən işlərə və qarşıya qoyulan məqsədlərə nəzər saldıqda sadəcə vəd verməklə kifayətlənməyən, strateji ekoloji qərarlarla konkret nəticələr əldə edən bir ölkə görürük. Bu ölkənin "yaşıl enerji" iqtisadiyyatına verdiyi önəm əməli fəaliyyətlərdə əksini tapır.

Azərbaycan böyük bərpaolunan enerji potensialına malikdir və bu, hazırda alternativ enerjiyə uğurlu keçidin nümunəsidir. Müasir Azərbaycanın adının neftlə sıx bağlı olmasına baxmayaraq, ölkəmiz regionda "yaşıl enerji"yə keçidə hədəflənən qabaqcıl yanaşmaların tətbiqi üzrə liderdir və iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə böyük töhfə verir. Hökumətin iqlim dəyişmələri ilə mübarizəyə töhfə verməsinin, Azərbaycanın beynəlxalq arenada şəksiz nüfuzunun məntiqi nəticəsi Bakının dünyanın ən iri və nüfuzlu tədbirlərindən birinin - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29-a ev sahibi seçilməsi oldu. Bu konfransın Azərbaycanda keçirilməsi ölkəmizin alternativ enerji sahəsi üzrə texnoloji həllər məsələsində nailiyyətlərini bütün dünyaya nümayiş etdirməyə imkan verəcək. Ölkəmiz nəinki müzakirələrə qoşulur, həm də iqlim dəyişmələri ilə mübarizə və planetin ekoloji rifahı üzrə praktiki tədbirlər görür.

Tədbir çərçivəsində ölkəyə on minlərlə xarici ziyarətçinin səfəri baş tutacaq ki, bu da turizm sənayesinin canlanmasına öz töhfəsini verəcək. Azərbaycanın tarixi, mədəniyyəti, maddi və mədəni milli irsi ilə yanaşı, ekoturizm, aqroturizm, məsuliyyətli və dayanıqlı turizm kimi yeni sahədə də geniş potensiala malik olduğu haqqında məlumatlılığı artıracaq. COP29 bütövlükdə iqtisadiyyat, o cümlədən turizmlə əlaqəsi olan digər sahələrdə gəlirliliyin artmasına və inkişafa müsbət təsir edəcək. Azərbaycanda turizm sənayesi ilə əlaqəli olan kiçik və orta sahibkarlığın inkişafı üçün yeni imkanlar yaranacaq,

Biznes və işgüzar turizm potensialının tanıdılması baxımından mühüm imkanlar ehtiva edəcək. Müvafiq infrastruktur, təşkilati və texniki bazanın mövcudluğu, ölkəmizin irimiqyaslı beynəlxalq tədbirlərə ev sahibliyi etmək üzrə geniş təcrübəsi COP29 kimi beynəlxalq tədbirin ən yüksək səviyyədə təşkil olunması üçün əsasdır.

Azərbaycan qeydiyyatdan keçən iştirakçıların ölkəyə rahat girişini təmin etmək məqsədilə COP29 viza müraciət sistemini yaxın zamanda təqdim edəcək. Respublikamıza xarici ölkələrdən səfər edən bütün COP29 iştirakçıları üçün (pasportun hansı ölkə tərəfindən verilməsindən asılı olmayaraq) viza tələb olunur. COP29 xüsusi vizası birdəfəlik giriş vizası olacaq. Əgər iştirakçı Azərbaycanı tərk etmək və COP29-un keçirildiyi müddətdə yenidən Azərbaycana geri qayıtmaq istəsə, o zaman Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) qeydiyyat nömrəsindən istifadə edərək və daha əvvəl keçdiyi prosesi təkrarlayaraq, COP29 xüsusi vizası üçün yenidən müraciət etməli olacaq. COP29 və sessiya öncəsi görüşlər üçün Azərbaycan ərazisinə səfər edən bütün xarici iştirakçıların pasportlarının etibarlılıq müddəti Azərbaycana daxil olduqları tarixdən ən azı altı ay sonrakı müddət üçün etibarlı olmalıdır. Bundan əlavə, iştirakçıların qeydiyyatı UNFCCC-nın onlayn qeydiyyat sistemi vasitəsilə təsdiqləndikdən sonra onlara e-poçt vasitəsilə viza üçün müraciət linki göndəriləcək. COP29 xüsusi vizasında onun verilmə tarixi qeyd ediləcək və o, cari il noyabrın 30-dək etibarlı olacaq. Viza sahibləri Azərbaycana bu tarixdən əvvəl daxil olmalıdırlar.

Ötən illər ərzində ölkəmizin ev sahibliyi etdiyi irimiqyaslı tədbirlərin icrasında olduğu kimi, könüllülər qlobal əhəmiyyətli COP29-un təşkilində də mühüm rol oynayacaq. Belə ki, konfransın təşkilati işləri ilə bağlı zəruri əməliyyatların icrası məqsədilə COP29 Azərbaycan Əməliyyat Şirkətinin fəaliyyəti çərçivəsində həm yerli, həm də xarici vətəndaşların, ümumilikdə isə 3000 könüllünün prosesə cəlb olunması gözlənilir. Proqramın əsas məqsədləri könüllülərin unikal bacarıqlarının real həllərin dəstəklənməsinə yönəldilməsi, əməkdaşlıq mədəniyyətinin təşviqi üçün hər səsin eşidildiyi, hər töhfənin qiymətləndirildiyi inklüziv mühitin təmin edilməsidir. Bu məqsədlə seçim və təlim prosesi zamanı yüksək motivasiyalı və müştərək öhdəliklə bir araya gələn gənclərdən ibarət komanda formalaşdırılacaq. Qeyd olunan məqsədlərə çatmaq üçün könüllülərin COP29 tədbirinə yüksək səviyyədə hazırlığının təmin edilməsi üçün onlara peşəkar inkişaf, ətraf mühit və dayanıqlılıq kimi mövzuları əhatə edəcək bir sıra müxtəlif təlimlərin keçirilməsi nəzərdə tutulub. Təlimlər könüllülərin iqlim konfransına hazırlıq mərhələsində hərtərəfli məlumatlandırılmalarına və səriştələrinin artırılmasına xidmət edəcək.

"Bu mötəbər tədbirin sədrliyini öz üzərinə götürən Azərbaycan bütün tərəflərlə səmimi və nəticəyönümlü dialoq quraraq COP prosesini irəli aparmaq, səmərəli iqlim fəaliyyətini təmin etmək və COP29-un uğurlu nəticələrlə yekunlaşması üçün əlindən gələni edəcəkdir". Bu fikirlər Prezident İlham Əliyevin Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "COP29-a Aparan Yol: Dayanıqlı və Davamlı Gələcək" mövzusunda keçirilən Yüksək Səviyyəli 29-cu Toplantının iştirakçılarına müraciətində yer alıb.

**Mustafa KAMAL,**
**"Respublika".**

Respublia.- 2024.- 11 iyul (№ 143).- S.1;7.